GESCO ASC




# AYLIQ İCMAL

Mart

# MÜNDƏRİCAT

## İnsan resursları

04 Vəzifədə yüksəliş

05 Xidmətdə fərqlənənlər

## Əməliyyat fəaliyyəti

07 Ayın fəaliyyəti

08 Statistika

## Ayın xəbərləri

10 Xəbərlər

## Qızıl qaydalar

12 3 qızıl qayda

«GESCO» Açıq Səhmdar Cəmiyyəti

03 Aylıq icmal - mart 2023



# İNSAN RESURSLARI

**Dəyər verdiklərinizi qoruyuruq!**

# VƏZİFƏDƏ YÜKSƏLİŞ



## Məhərrəmov Orxan Mətləb
(Xidmət rəisinin müavini)

"GESCO" ASC-dəki əmək fəaliyyətinə 19.03.2019-cu il tarixindən nəzarətçi vəzifəsi ilə başlayan Orxan Məhərrəmov 16.03.2023-cü ildən etibarən xidmət rəisinin müavini vəzifəsinə keçirilmişdir.



## Şəmmədov Raqib Sərbaz
(Növbə rəisi)

02.09.2016-cı ildən "GESCO" ASC-də mühafizəçi vəzifəsində çalışan Raqib Şəmmədov 06.03.2023-cü ildən növbə rəisi vəzifəsinə təyin edilmişdir.



## Həsənov Anar Zaur
(Növbə rəisi)

14.02.2022-ci ildən "GESCO" ASC-də sürücü-mühafizəçi vəzifəsində çalışan Anar Həsənov 27.03.2023-cü ildən növbə rəisi vəzifəsinə keçirilmişdir.

***Əməkdaşlara yeni fəaliyyətlərində uğurlar arzulayırıq!***

Vəzifədə yüksəliş və sosial nərdivan prinsipi "GESCO" ASC-nin kadr siyasətinin əsasını təşkil edir.







# XİDMƏTDƏ FƏRQLƏNƏNLƏR

Universitet layihələrindən birində xidmət göstərən iki əməkdaş - Zərifə Qocayeva və Faiq Balacanov mart ayı ərzində mühafizə xidmətinin təşkili zamanı yüksək ayıq-sayıqlıq və çeviklik nümayiş etdirdikləri üçün mükafatlandırılıblar.



# ƏMƏLİYYAT FƏALİYYƏTİ

# AYIN FƏALİYYƏTİ

## "Qarabağ" - "Qalatasaray" oyunu

Ötən ay həyata keçirilən əsas fəaliyyətlərdən biri "Qarabağ" - "Qalatasaray" oyununun mühafizəsi olmuşdur. Bakı Olimpiya Stadionunda keçirilən oyuna 100-dən çox əməkdaş cəlb edilmişdir.

26 mart tarixində keçirilən oyunda əməkdaşlarımız tərəfindən giriş-çıxışa, qonaqların düzgün yönləndirilməsinə nəzarət edilmişdir. Şirkət 2014-cü ildən etibarən bu cür kütləvi və beynəlxalq səviyyəli tədbirlərin mühafizə olunmasında iştirak edir.





Mart ayı ərzində mühafizəçilər tərəfindən qarşısı alınmış hadisələrin statistikasını təqdim edirik.






# AYIN XƏBƏRLƏRİ

# AYIN XƏBƏRİ




## "SEQUAL" sertifikatı əldə edilib

"GESCO" ASC "SEQUAL" kvalifikasiya sistemindən qeydiyyatdan keçərək sertifikatlaşdırılıb. Qeydiyyat üçün müraciət edən şirkətlərin böyük tələb və meyarlarla qiymətləndirildiyi "SEQUAL" neft və qaz sektorunda dünya üzrə həm alıcılar, həm də təchizatçılar üçün nəzərdə tutulmuş ən böyük kvalifikasiya xidmətlərindən biridir.

Əldə etdiyimiz bu keyfiyyət sertifikatı hazırkı və yeni əməkdaşlıqlarımızda xidmətlərimizdən daha inamla istifadəyə şərait yaradacaq.



# QIZIL QAYDALAR

# Mühafizəçilər fiziki olaraq necə formada qala bilərlər?

## İşdənkənar, gündəlik məşqlər

Peşəkar mühafizəçilər fiziki formalarını qorumaq üçün işdən sonrakı vaxt ərzində idmanla məşğul olmağa üstünlük verirlər. Bu, onların iş zamanı çevik və güclü olmağını təmin edən ən əsas faktorlardan biridir.

## İş zamanı hərəkətlilik

İş vaxtı aktivlik və məhsuldarlıq üçün hərəkət etmək şərtdir. Bu hərəkətlilik həm də mühafizəçinin fiziki olaraq atletik bir bədənə sahib olmağına kömək edir.

## Sağlam qidalanma vərdişi

Peşəkar mühafizəçilərin sağlam qidalanmağa üstünlük verməsi onları təkcə fiziki cəhətdən deyil, zehni cəhətdən də sağlam saxlayır. İşin səmərəli icrası üçün fiziki və əqli hazırlıq zəruridir.

GESCO SECURITY COMPANY

G

Since 2005

GESCO ASC

## BİZİMLƏ ƏLAQƏ

+994 12 310 05 77
+994 55 207 00 40

office@gesco.az

www.gesco.az

Bakı, Ziya Bünyadov prospekti,
1965-ci məhəllə, Çinar Park Biznes
Mərkəzi